Hər gün, hər saat mükəmməlliyə doğru!

# Xəzər Universiteti

# Beynəlmiləlləşmə Strategiyası

# 2019-2023

Xəzər Universitetinin Beynəlmiləlləşmə Strategiyası və Xəzər Universitetinin 2019-2023-cü illər üzrə Strateji Planı tədris və tədqiqat işinin beynəlmiləlləşdirilməsini əsas hədəf istiqaməti olaraq götürür.

Xəzər Universiteti strategiyasına uyğun olaraq, aşağıda qeyd olunan fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur.

1) Müxtəlif ölkələrdən əncəbi tələbələrin cəlb olunması

2) Xəzər Universitetində fəaliyyət göstərən tədqiqatçıların dünyanın aparıcı universitetlərinin tədqiqat qrupları ilə əməkdaşlığın qurulmasına dəstəyin göstərilməsi

3) Tələbələrin, akademik və inzibati işçi heyətin beynəlxalq proqramlara cəlbinin genişləndirilməsi

Xəzər Universitetinin akademik və inzibati struktur rəhbərləri tədqiqatların beynəlmiləlləşdirilməsi üzrə strateji mexanizmi formalaşdırmaqda mühüm rol oynayır. Xəzər Universiteti aşağıdakı istiqamətlər üzrə fəaliyyət planını reallaşdırır: a) müxtəlif qitələri əhatə edən əcnəbi tələbələrin qəbulu b) tələbələr, akademik və inzibati işçi heyətinin beynəlxalq mübadilə proqramlarına cəlb olunması c) beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında tələbələr və işçi heyətinin iştirakının təbliğ-təşviq olunması d) kurrikulumun inkişafı istiqamətində töhvənin verilməsi.

Xəzər Universitetində fakültələr, Beynəlxalq Əlaqələr Ofisi və digər inzibati şöbələr beynəlxalq əməkdaşlıqların gücləndirilməsində öz töhvəsini verir.

Xəzər Universitetinin 2019-2023-cü illəri əhatə edən **Beynəlmiləlləşmə strategiyası aşağıdakı 3 istiqamətdən** ibarətdir:







Beynəlmiləl Universitetə çevrilmək

Azərbaycan və onun beynəlxalq tərəfdaşları arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqənin yaradılması

Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıq şəbəkəsini genişləndirmək

***1-ci strateji hədəf: Beynəlmiləl Universitetə çevrilmək***

Yarandığı dövrdən bəri Xəzər Universiteti xaricdən dəvət edilmiş mütəxəssislərin, eləcə də xaricə göndərilmiş müəllim və tələbələrin sayına görə Azərbaycanın qabaqcıl ali təhsil müəssisəsisələrindən biri olmuşdur. Ölkənin və regionun aparıcı mütəxəssisləri, akademikləri sırasından Xəzər Universitetində tələbə və ya işçi heyəti qismində fəaliyyət göstərmiş şəxslər mövcuddur. İnkişaf strategiyasının əsas strateji hədəflərindən biri olan bu strateji hədəf beynəlmiləlləşmə ilə bağlı istiqamətdə Xəzər Universitetinin fəaliyyətini gücləndirmək məqsədi daşıyır. Xəzər Universitetində əcnəbi təhsilalanların payının artırılması, beynəlxalq mübadilə proqramlarında daha çox tələbə, müəllim və inzibati heyətin iştirakının təmin edilməsi, beynəlxalq ikili diplom proqramlarının sayının davamlı artırılması hədəflənib. Beynəlxalq Əlaqələr Ofisi Xəzər Universitetinin beynəlxalq səviyyəli universitet statusunun saxlanılması istiqamətində aparıcı rol oynayır və bu istiqamətdə bütün fakültələr ilə yaxından əməkdaşlıq edir.

***2-ci strateji hədəf: Azərbaycan və onun beynəlxalq tərəfdaşları arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqənin yaradılması***

Xəzər Universiteti Cənubi Qafqaz, Türkiyə, Mərkəzi Asiya, Yaxın Şərq, Avropa Birliyi və digər ölkələr ilə əməkdaşlıqların genişləndirilməsini hədəfləyir. Xəzər Universitetinin akademik və

inzibati strukturu beynəlxalq əməkdaşlıqların qurulmasında və möhkəmlənməsində mühüm rola malikdir. Çoxsaylı xarici universitetlər və digər qurumlarla beynəlxalq əlaqələrin qurulması, ikili diplom proqramının reallaşdırılması, müxtəlif beynəlxalq layihələrin, tələbə-müəllim mübadilə proqramlarının həyata keçirilməsi Xəzər Universitetinin beynəlmiləlləşmə strategiyasının hədəflərindən biridir.

Xəzər Universitetinin Erasmus+, Mövlanə Mübadilə Proqramı və digər proqramlar çərçivəsində beynəlxalq əlaqələrin genişləndirilməsi, yeni akademik tərəfdaşlıqların qurulması, kredit mobilliyi proqramları ilə əməkdaşlığın inkişafı və beynəlxalq təhsil layihələrində iştirakını diqqət mərkəzində saxlayacaqdır. Bu istiqamətdə Xəzər Universiteti əcnəbi tələbələrin və qonaq professor-müəllim heyətinin tədris prosesində iştirakına dəstək olur.

***3-cü strateji hədəf: Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıq şəbəkəsini genişləndirmək***

Birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsinin təmin edilməsi əsas strateji hədəflərdən biridir. Xəzər universitetində müxtəlif istiqamətlər üzrə elmi və elmi tədqiqat işi yerinə yetirilir. Xəzər Universitetinin fakültələri, Beynəlxalq Əlaqələr Ofisi və İnkişaf Mərkəzi birlikdə Erasmus+ və digər proqramların məlumat sessiyalarını, layihələrin yazılması və icrası istiqamətində yerli və müxtəlif beynəlxalq seminarlar, konfranslar, görüşləri təşkil edir. Universitetdə müxtəlif beynəlxalq elmi konfransların keçirilməsinə dəstək göstərir.

Yüksək səviyyəli tədqiqat işlərinin aparılması və tədqiqat şəbəkəsinin genişləndirilməsi üçün nüfuzlu xarici ali təhsil və tədqiqat müəssisələri ilə əməkdaşlıqlar istiqamətində fəaliyyətlər genişləndiriləcək. Xəzər Universiteti professor-müəllim heyətini, doktorantların və tədqiqatçıların beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında iştirakını təbliğ-təşviq edəcək. Birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsinin təmin edilməsində fakültələrin və departamentlərin rolu olduqca əhəmiyyətlidir.

Ümumilikdə, akademik və inzibati struktur Fəaliyyət Planlarını tədris prosesinin və tədqiqatların beynəlmiləlləşdirilməsinə əsaslanaraq tərtib edirlər.